## Vaqif SƏMƏDOĞLU

* * *

Doğuldum 1939-da,
1937-də tutuldum.
48-də nənəm öldü,
ömrümdə ilk dəfə
ölüyə ağladım.
Balıqlar saxladım
akvariumda.
Açıq qaldı pəncərəm
Bir qış gecəsi.
Dondu balıqlar...
İndi 1965-in
yanvar gecəsidir.
Deyəsən, yaşamaq istəyirəm.

*1965*

* * *

Sən mənim
Doğma anamsan, Azadlıq,
mən sənin
yad qapısında böyümüş balan...

Sən son ümidimin qaldırdığı
ağ bayraqsan, Azadlıq,
mən səni
yellədən külək...

*1969*

* * *

Sevgilim, mən öləndə,
Bir güncdə xısın-xısın
Ağlayacaqsanmı, sən?
Kimin xarabasında
Bir damla yaşa dönüb,
Düşəcəyəm gözündən?
Ağla, qurbanım, ağla,
Ağla, heyranım, ağla,
Evdə qonaqlar olsa,
Çıxıb eşikdə ağla.
Gözlə, gecə düşəndə,
Yorğan-döşəkdə ağla.
Qulaq asma aləmin
Sözünə bircə kərə,
De, Vaqif ölməliydi,
Gəl, öldü nahaq yerə...
Sevgilim, mən öləndə,
Soraq sənə gələndə,
Düşmən gözü güləndə,
Ağla, olanım, ağla,
Ağla, qalanım, ağla,
Ağla, mən ölüm, ağla...

*1980*

* * *

Gərək bu ayrılıq heç gəlməyəydi,
Gözüm görə-görə gəlir, neyləyim?
Aləm bizə baxıb kaş gülməyəydi,
Gözüm görə-görə gülür, neyləyim?

Zatı qırıq imiş etibarın da,
Arxası qış imiş hər baharın da,
Gözləri doyubmuş məndən yarın da,
Dərdimi bir Tanrı bilir, neyləyim?

Bu sabah yer üzün nəm torpağıyla,
Ağaclar şeh düşmüş tər yarpağıyla,
Ölüm əllərinin buz barmağıyla
Yaşaran gözümü silir, neyləyim?

*1980*

* * *

Əlimi uzatdım
sevincə sarı,
Gördüm yox,
arada kədər dayanıb.
Atamı səslədim
köməyə gəlsin,
Gördüm yox,
arada qəbir dayanıb.
Üz tutub gedirdim
Allaha tərəf,
Gördüm yox,
Arada ömür dayanıb...

*1980*

* * *

Sənə olan etibarım,
Yaralanıb, de, neyləyim?
Aramızda pərdə vardı,
Aralanıb, de, neyləyim?

Kaman süzüb, tar oynayıb,
Mən xəstəykən yar oynayıb,
Aramızda qar oynayıb,
Qaralanıb, de, neyləyim?

*1980*